# Tarix İnstitutu ilə Kunstkamera arasında elmi əməkdaşlıq haqqında müqavilə imzalanıb



Dünən Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunda "Azərbaycan-Rusiya münasibətləri tarixi" şöbəsinin fəaliyyəti çərçivəsində Rusiya Elmlər Akademiyasının (REA) Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyinin (Kunstkamera) direktoru, tarix elmləri doktoru Yuri Kirilloviç Çistov ilə görüş keçirilmişdir.

Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov institutun beynəlxalq elmi əlaqələrindən söz açaraq bildirdi ki, Azərbaycan tarixçi-alimləri Kunstkamera ilə əməkdaşlığa çox şaddırlar. Tarix İnstitutu Rusiyanın arxivləri ilə sıx əməkdaşlıq edir. Belə ki 2015-ci ilin oktyabrında RF-nin Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu, 2016-cı ilin martında isə RF Tatarıstan Respublikası Elmlər Akademiyasının Şəhabəddin Mərcani adına Tarix İnstitutu ilə elmi əməkdaşlıq haqqında müqavilələr imzalanıb.

Daha sonra Tarix İnstitutu ilə Kunstkamera arasında elmi əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqaviləni Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov və Kunstkameranın direktoru, tarix elmləri doktoru Yuri Çistov imzaladılar. Qeyd olundu ki, elmi müəssisələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədi daşıyan bu müqavilə iki ölkə münasibətlərinin mühüm tərkib hissəsi olaraq xalqlar arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək.

Əməkdaşlığın hər iki tərəf üçün səmərəli olacağını vurğulayan Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya Muzeyinin direktoru Yuri Çistov bildirdi ki, Kunstkamera XVIII əsrin əvvəllərindən Rusiya Elmlər Akademiyasının simvolu hesab olunur. Rusiyanın ilk muzeyi olan Kunstkamera Sankt-Peterburq şəhərində yerləşir.

***"Azərbaycan"***